Adımız məfkurəmizdir

№12 15 – 21 aprel 2025-ci il

Türküstan

www.turkustan.az



Elxan Zal Qaraxan

Etruskların əcdadlarının Uzaq Şərqdən İtaliyaya gələn Türklərin olduğunu ilk dəfə hələ XIX əsrdə görkəmli ingilis alimi rahib İsaak Teylor söyləmişdir. O, “Etrusk araşdırmaları” adlı kitabında bunla bağlı maraqlı mülahizələr

formasıdır. Yunan yazıçıları hər yerdə onları TURREN və ya TURSENA adlandırırlar. Sonuncunun qədim latın ifadəsi olan TURÇİ ilə bağlı olması şübhə doğurmur. Həm yunan, həm də latın adlandırılmaları şübhəsiz ki, identikdir və onların orijinal etrusk adından törədiyini söyləmək olar. “Rasena” məfhumu ilə analogiya aparsaq bu adın TURÇENNA ya TURKSENNA olduğunu söyləyə bilərik. Hazırkı zamanda biz bu adların etimologiyasını araşdıraraq göstərəcəyik ki, RASENNA uqor sözüdür və “soydaş”, TURÇENNA ya TURKSENNA isə “türk-men” ya “turkoman” mənasını verir”.

***İtaliya alimi Mayaninin mülahizəsinə görə, ‘Dunay hövzəsindən Balkanların qərbinə, İlliriya-***



ları eyni xalq sayır.

Q. Müleşteyn də etruskları iki xalqın, tirrenlərin və rasenaların qarışmasından yarandığını yazır.

ruskların şərqdə yaşadıqları dövrdə hind-avropalılarla ünsiyyətdən yarandığını bildirir. O, etrusk dilində türkizmlərin olduğu-

# Səmavi qurdun torunları

## (Elxan Zal Qaraxanın yeni yazdığı “Romanın Turan tarixi” əsərindən

(əvvəli ötən sayımızda)

***Ad oxşarlığı-Arsena və Aşina (əslində “arsina”, çünki etnonimin yazıya alındığı Çin dilində “r” səsi yoxdur), Əcdad mağarası kultu, Qurd simvoluna sakral inam etrusklar və qədim türklər arasında hansısa uzaq və dərin bir əlaqənin olduğundan xəbər verir. Çin mənbələrinin verdiyi məlumata görə, Türk xaqanlığını hunların içərisindən çıxan Aşina boyundan olan Türklər qurmuşdular. Etrusk cəmiyyətini idarə edən nəsil də mənbələrdə “Tark”lar (Tarkue) adlanırdı. Tarkların və Türklərin inanc sistemlərində, yaşayış və dəfn üsullarında, dillərində və əlifbalarında da inanılmaz bənzərliklər var. Amma türk (runik) və etrusk əlifbalarının müqayisəli analizi bilərəkdən, ya bilməyərəkdən hələ də ciddi bir mütəxəssis tərəfindən aparılmayıb.***

Bir çox araşdırmaçılar etrusk və türk dillərində xeyli sayda eyni mənalı oxşar sözlərin olduğunu qeyd edirlər, amma indiyədək Etrusk-Türk (göytürk) əlaqələri ciddi şəkildə araşdırılmayib. Bu məsələdə alimləri əsas qorxudan problem məsafədir, zaman və məkan məsafəsi - Apennin yarımadası harada, Altay və Qobi dağları haradadır? Etruskların formalaşdığı dövrlə Göytürklər zamanı arasında da 1000–1500 illik bir məsafə var. Buna görə elm adamlarının əsas arqumentlərindən biri budur ki, “Etrusk-türk əlaqəsindən danışmaq üçün türkologiya elmi Altay teorisinə istinad edə bilmir, çünki etruskların İtaliyaya Altaydan getməsini ortaya qoya biləcək bəlgələr yoxdur”. Həmçinin etrusklarla eyni dövrdə Ön Asiyada hegemonluq edən iskitlər və kimmerlərlərin etrusklarla əlaqələri barədə də ciddi bir elmi araşdırma olmayıb, amma azərbaycanlı araşdırmaçı Çingiz Qaraşarlının bu yöndə atdığı addımlar bizə böyük ümidlər verir.

Digər Azərbaycan alimi Firudin Ağasıoğlunun Urmu teorisinə görə türklər bir zamanlar Uzaq Şərqə Ön Asiyadan köç etmişlər və müəllif bununla bağlı çox maraqlı elmi dəlillər göstərir. XII əsr müəllifi S. Sturlusonun Kiçik Asiyanı (indiki Türkiyə ərazisini) Turkland adlandırması Firudin Ağasıoğlunun öz mülahizələrində yanılmadığını bir daha təsdiq edir. Əgər prototürklər Ön Asiyadan Uzaq Şərqə göç edə bilirdisə, yaxın Qərbə, Apennin yarımadasına da köç edə bilərdilər. Etruskların və pelaskların timsalında gördüyümüz kimi onlar bunu etmişlər.



***Bir çox araşdırmaçılar etrusk və türk dillərində xeyli sayda eyni mənalı oxşar sözlərin olduğunu qeyd edirlər, amma indiyədək Etrusk-Türk (göytürk) əlaqələri ciddi şəkildə araşdırılmayib. Bu məsələdə alimləri əsas qorxudan problem məsafədir, zaman və məkan məsafəsi - Apennin yarımadası harada, Altay və Qobi dağları haradadır? Etruskların formalaşdığı dövrlə Göytürklər zamanı arasında da 1000–1500 illik bir məsafə var. Buna görə elm adamlarının əsas arqumentlərindən biri budur ki, “Etrusk-türk əlaqəsindən danışmaq üçün türkologiya elmi Altay teorisinə istinad edə bilmir, çünki etruskların İtaliyaya Altaydan getməsini ortaya qoya biləcək bəlgələr yoxdur”. Həmçinin etrusklarla eyni dövrdə Ön Asiyada hegemonluq edən iskitlər və kimmerlərlərin etrusklarla əlaqələri barədə də ciddi bir elmi araşdırma olmayıb, amma azərbaycanlı araşdırmaçı Çingiz Qaraşarlının bu yöndə atdığı addımlar bizə böyük ümidlər verir...***

irəli sürmüş, ilk dəfə olaraq Rasenna-Aşina, xilaskar Qurdla bağlı əfsanələr arasında paralellər aparmışdır.

İ. Taylor bu barədə yazır: “Biz etruskların özlərini rasena adlandırdıqları barədə məlumata görə, Qalikarnaslı Dionisiyə minnətdarıq. Onların özlərini belə adlandırmasına biz nə yunanlarda, nə də latınlarda rast gəlmirik. İtaliyada tanınan TUSK və ETRUSK adları, yəqin ki, Lepsiusun göstərdiyi kimi, İQUVİN cədvəllərində rastlaşdığımız daha qədim TURÇİ sözünün təhrif olunmuş

***ya gələn köçərilər (tirren-iskitlər E. Z) orada oturub ‘İlliriya etnik nüvəsini təşkil etdilər, oradan Lemnos adasında dayanmaqla Yunanıstan üzərindən Adriatik dənizini keçməklə İtaliyada yerləşdilər. Bir neçə yüzildən sonra həmin etnik tərkibdə digər bir qrup Anadolu üzərindən İtaliyaya gəldi. Məhz bu tayfalar özlərini rasena-arsena adlandırırdı”.*** Onun düşüncəsinə görə, hər iki qrup dialekt fərqləri olan eyni dildə danışırdı, yəni Mayani İtaliyaya şimaldan gələn İlliriyalı tirren-iskitlərlə cənubdan gələn rasena-

O, tirrenlərin Aralıq dənizi sahillərində hind - avropalılardan daha qədim bir xalq olduğunu, rasenaların İtaliyaya Kiçik Asiyadan köç etdiyini bildirir. Lesboslu Gellanikin məlumatına görə “Balkanlardan ellinlilər tərəfindən sıxışdırılıb çıxarılan tirrenlər Padan ovalığında yerləşdilər, Yunanıstanda onları pelask, İtaliyada tirren adlandırmağa başladılar”.

V. Brandenşteyn etrusk dilindəki hind-avropa izlərini gəlmə tirrenlərlə yerli umbrların qarışmasından yaranması tezisini qətiyyətlə inkar edir. Bu izlərin et-

nu qeyd edirdi. V. Brandenşteyn etruskların əcdadlarının e. ə. II minillikdə Orta Asiyada yaşadıqlarını, oradan Kiçik Asiyaya köç etdiklərini və burada köçərilərin dəniz quldurlarına çevrildiklərini guman edir. Etruskların İtaliyaya köç etməsini o, e. ə. 900–800-ci illərlə əlaqələndirir. Doğrudur, on il sonra o, “Tyrrhener” başlıqlı yazısında etruskları türklərə deyil, protohatlara bağlayır, lakin hat dilinin özündə də türkizmlər vardır. Hattilər (e. ə III – II minilliyin əvvəli) Kiçik Asiyanın, Anadolunun şimal-şərqində, Qızıl İrmaq çayının ətrafında dövlət qurmuş qədim xalqdır. Onların dilində yazılı abidələri hələ rast gəlinməsədə, hatti dilinə aid toponimlər, şəxsi adlar, tanrı adları, hithit yazılarında olan kiçik dini mətnlər dilçi-alimlərə bu dil barədə mülahizə yürütməyə imkan verib. (Qiorqadze Q. Q. K voprosu o lokalizaüii v əzıkovoy strukture kaskskix gtniçeskix i qeoqrafiçeskix nazvaniy. - Peredneaziatskiy sbornik. M., 1961).

***Xatti dilində olan türkizmlərə ilk dəfə diqqət yetirən də Vilhelm Brandenşteyn olub.***

Oxu, oxut, abunə ol!